*Müsəlman Şərqində ilk demokratik cümhuriyyətin məhz Azərbaycan torpağında yaranması xalqımızın o dövrdə və o illər ərəfəsində - XIX əsrin sonunda və XX əsrin əvvəllərində milli müstəqillik, azadlıq duyğuları ilə yaşaması ilə bağlıdır.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 26 may 2018-ci il № 40 (2256) Qiymәti 25 qəpik


*Ön xətdən reportaj*

# "Qələbə günümüz uzaqda deyil"



*Ey Vətən, sənin azadlığın, suverenliyin, müstəqilliyin, ərazi bütövlüyün uğrunda neçə oğul və qızların son damla qanına qədər vuruşub, göz qırpmadan yolunda şəhid oldular. Vətənpərvər övladlarının keçdiyi döyüş yolu hər birimizi Böyük Qələbəyə - torpaqlarımızı azad etməyə, şəhidlərimizin qisasını almağa səsləyir. Bu gün hər bir Azərbaycan əsgəri bədxah niyyətli qonşularını törətdikləri vəhşiliklərə görə peşman etməyə hazırdır. Mənfur düşmən qəhrəman əsgərlərimizin gücünə yaxşı bələddir. Aprel döyüşləri ermənilərə bir daha sübut etdi ki, igid oğullarının yalnız bir amalı var - Vətən, sənin torpaqlarını qorumaq.*

Belə oğullarla tanış olmaq üçün düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsinə yollanırıq. Bizi müşayiət edən hərbi hissənin zabiti kapitan Elşad Kərimov döyüş növbətçiliyi aparan şəxsi heyətin mənəvi-psixoloji hazırlığı barədə məlumat verir.

"Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş ruhu yüksəkdir. Əsgərlərimizə mütəmadi olaraq ictimai-siyasi, taktiki, atəş, mühəndis hazırlığından nəzəri və praktiki məşğələlər keçirilir. Dərslərdə fərqlənən əsgərlərimiz hərbi hissə komandanlığı tərəfindən növbədənkənar məzuniyyət, fəxri fərman və təşəkkür məktubu ilə qiymətləndirilirlər."

**(Ardı 2-ci səhifədə)**

# NATO generalları: “Azərbaycan zabitləri NATO-nun tərəfdaş ölkələrdən olan həmkarları üçün layiqli nümunədirlər”

*Mayın 23-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov NATO-nun Hərbi Tərəfdaşlıq İdarəsinin rəisi general-mayor Odd Egil Pedersen və Şimali Atlantika Alyansının Quru Qoşunları Komandanlığının qərargah rəisi diviziya generalı Erhan Uzun ilə görüşüb.*



Görüşdə Azərbaycanın NATO ilə əməkdaşlığa xüsusi önəm verdiyini bildirən general-polkovnik Zakir Həsənov vurğulayıb ki, Azərbaycan Ordusunun hərbi qulluqçuları Alyansın müxtəlif proqramlarında, xüsusilə də Əfqanıstanda həyata keçirilən "Qətiyyətli Dəstək" missiyasında daim iştirak edirlər.

Qonaqlar da öz növbəsində Azərbaycanın NATO üçün vacib tərəfdaş olduğunu qeyd edərək Alyansın qərargahlarında xidmət keçən, müxtəlif proqramlarında iştirak edən Azərbaycan zabitlərinin bilik və bacarığını yüksək qiymətləndiriblər.

Ordumuzun şəxsi heyətinin yüksək peşəkarlığından və hazırlığından məmnun qaldıqlarını bildirən qonaqlar xüsusi qeyd ediblər ki, NATO-nun proqramları çərçivəsində keçirilən müxtəlif tədbirlərdə öz bilik və təcrübələrini bölüşən Azərbaycan zabitləri digər ölkələrdən olan həmkarları üçün layiqli nümunədirlər.

Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) proqramı çərçivəsində Azərbaycan Ordusunun kəşfiyyat bölüyünün 2-ci səviyyəli özünü qiymətləndirmə üzrə səhra təlimini izləmək üçün ölkəmizdə olan qonaqlar əvvəlki illərdə olduğu kimi bu dəfə də təlimin uğurla başa çatacağına əminliklərini bildiriblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, foto Natiq İSAYEVİNDİR**

# “Qələbə günümüz uzaqda deyil”



(Əvvəli 1-ci səhifədə)

Zabitlə birgə səngərə daxil oluruq. Gizir Valeh Abbasov döyüş mövqeyində heç bir hadisənin baş vermədiyini bildirir. Əslən Şuşa şəhərindən olan hərbçimiz ön xətdə xidmət etdiyindən qürur duyduğunu bildirir. "Mənim üçün səngərdə xidmət etmək yaşam deyil, həyat tərzidir. Əsgəri xidmətimə ön xətt bölmələrindən birində baş istehkamçı kimi başlamışam. Vətənə, millətə olan sevgim, düşmənə olan nifrətim məni ordu sıralarında xidmətimi davam etdirməyə vadar etdi. Əsgər kimi xidmətimi başa vurduqdan sonra gizir hazırlıq kursunu bitirdim. Hal-hazırda taqım komandirinin müavini vəzifəsində xidmətdəyəm. Belə şərəfli peşənin nümayəndəsi olduğuma görə fəxr edirəm. Mütəmadi olaraq əsgərlərimlə söhbət aparır, onlara kursda mənimsədiyim bilikləri öyrədirəm".

Həmsöhbətim şəxsi heyətin təlimatlandırılmasından da söz açaraq bildirir ki, döyüş növbəsinə təyin olunduqdan sonra şəxsi heyətə düşmənin bütün fəaliyyəti və snayperlərinin fəallığı haqqında geniş məlumat verir. "Baş verə biləcək hər hansı bir problemin qarşısını almaq məqsədi ilə əsgərlərimə diqqətli və ayıq-sayıq olmalarını, müşahidən ancaq təyin olunmuş yerlərdən və cihazlardan aparmalarını, təhlükəsizlik qaydalarına ciddi riayət etmələrini tapşırıram. Bir sözlə, əsgərlərimizə Vətənin müdafiəsi üçün bütün bilik və bacarıqlarını səfərbər etməyi aşılayıram".

V.Abbasov tabeçiliyində olan əsgərlərdən ən yadda qalanı Lənkəran şəhərindən hərbi xidmətə çağırılan manqa komandiri vəzifəsində xidmət edən əsgər Xəyyam Şəkərli olduğunu bildirdi. Gizirin sözlərinə görə o, öz nizam-intizamı və fiziki hazırlığı ilə bütün əsgərlərə nümunə olmuşdu. Dərslərdə xüsusi fəallıq göstərdiyi üçün dəfələrlə yuxarı komandanlıq tərəfindən mükafatlandırılmışdı.

"Hər gecə işğal altında olan torpaqlarımızda yanan işıqları müşahidə edəndə ürəyim parçalanır. Dua edirəm ki, tez bir zamanda doğma yurduma - Şuşa şəhərinə qalib kimi ayaq basım. İnanıram ki, Qələbə günümüz çox yaxındadır. Hər an Ali Baş Komandan İlham Əliyevin döyüş əmri ilə düşmənləri işğal altında olan torpaqlarımızdan qovub-çıxartmağa hazıram", - deyən gizir silahın kəmərini əlində bərk-bərk sıxır.

- Ermənilərin analarımızın, bacılarımızın başına gətirdiklərini uşaq vaxtlarında kütləvi informasiya vasitələrindən izləyirdim. Gördüyüm hər kadr, oxuduğum hər məlumat düşmənə olan nifrətimi daha da artırırdı. Tez bir zamanda mən də Vətənin müdafiəçilərinin sırasına daxil olmaq istəyirdim. Bu gün düşmənlə üzbəüz torpaqlarımızı qorumaqla fəxr edirəm. İşğal altında olan torpaqlarımız uğrunda gedən döyüşlərdə şəhid qardaşlarımızın qisasını alacağımız günü səbirsizliklə gözləyirəm, - bu sözləri Biləsuvar rayonundan hərbi xidmətə çağırılan əsgər Elburus Süleymanzadə deyir.

E.Süleymanzadə əsgər yoldaşlarına nümunəvi xidmət etmələrini tövsiyə etməyi də yaddan çıxarmadı. "Azərbaycanın qəhrəman əsgərlərinə demək istəyirəm ki, bu atalar sözünü heç vaxt unutmasınlar: "Təlimdə təri tökülənin, döyüşdə qanı tökülməz". Bu səbəbdən onlara məsləhət görürəm ki, boş vaxtlarından səmərəli istifadə etsinlər. Komandirlərin köməyi ilə hərbi biliklərini müntəzəm olaraq təkmilləşdirsinlər, silahlarını, döyüş texnikalarını mükəmməl öyrənsinlər, çünki Böyük Qələbə uğrunda döyüşlərdə uğurun açarı təcrübə olacaq".

Balakən rayonundan hərbi xidmətə çağırılan əsgər Rəvan Bayramov yuxarı komandanlığın qayğı və diqqətini hər addımda hiss etdiyini bildirdi. "Xidmətə gəldiyim ilk gündən komandirlərin qayğı və diqqəti ilə əhatə olunmuşam. Düşmənlə üzbəüz dayanmağımıza baxmayaraq, müasir standartlara cavab verən yataqxana, yeməkxana və sanitar qovşaq bizim istifadəmizdədir. Bizdən sonra xidmətə gələn qardaşlarımızın da bu cür yerdə xidmət etməkləri üçün yaradılan şəraiti qoruyub saxlamağa çalışırıq".

"Vətənin müdafiəsində dayanmaq uşaqlıq arzum idi", - deyə hərbi xidmətə Masallı rayonundan çağırılan əsgər Rza Yahazadə söhbətimizə qoşulur. "Hərbi xidmətə gəlməzdən əvvəl atamdan mənə müharibə illərindən danışmağını istəyərdim, o da acılı-kədərli xatirələrindən, həmin günlərin çətinliyindən, ermənilərin fitnəkarlığından, igidlərimizin göstərdiyi şücaətdən danışardı. Belə söhbətlərdən təsirlənirdim. Böyüyüb "mən də əsgər olacam, Vətənimi yağılardan müdafiə edəcəm", deyərdim. Nəhayət, vaxt gəlib çatdı, mən də Vətənimizi qoruyanların sıralarına qoşuldum. Məni xidmətə yola salan atam "Oğul, arzu edirəm ki, zəfər xəbərini səndən eşidim", - dedi. Qoy, mənfur düşmənimiz bilsin ki, minlərlə cəsur, yurdunu sevən Azərbaycan əsgəri işğal altında olan torpaqları azad etməyə gəlir. Biz bayrağımızı Şuşada, Laçında, Kəlbəcərdə və digər işğala məruz qalan torpaqlarımızda dalğalandırmalıyıq".



Əsgər Orxan Gülməmmədov fiziki hazırlıqlarından danışaraq qeyd edir ki, hər gün idman etməyin insan orqanizminə əvəzolunmaz faydası var. "Günün nizam qaydasına uyğun olaraq səhər və axşam silahlı, silahsız və ikilikdə kompleks çalışmalar yerinə yetiririk. İdmanla məşğul olmaq bizi gümrah, yüksək əhval-ruhiyyədə saxlayır, enerjili olmağımızı təmin edir, fiziki gücümüzü, xəstəliklərə qarşı müqavimətimizi artırır. Bu da o deməkdir ki, döyüş meydanında erməni əsgərindən cəld və güclü olacağıq. Düşmənlə əlbəyaxa döyüşdən qalib çıxacağıq. Onsuz da bütün dünyaya məlumdur ki, erməni xalqı çox aciz və qorxaq xalqdır. Qorxmaqda onlar haqlıdırlar, çünki güclü, mərd, cəsur və vətənpərvər Azərbaycan əsgərlərinin qarşısında dayandıqlarının fərqindədirlər".

Əsgərlər İsmət Əliyev, Ceyhun Rzayev, Nicat Zeynalov və digərləri Ali Baş Komandan İlham Əliyevin döyüş əmrini səbirsizliklə gözlədiklərini və Azərbaycan bayrağını Şuşada Xankəndidə, Laçında... dalğalandıracaqları günün həsrətilə yaşadıqlarını bildirirlər. Böyük Qələbədən reportaj hazırlamaq vədəsi ilə əsgərlərimizlə vidalaşıram.

**Baş leytenant Ruslan HƏSƏNZADƏ, "Azərbaycan Ordusu", fotolar Coşqun CƏFƏROVUNDUR**

# Şəhid əsgərin təltif olunduğu "Şücaətə görə" medalı ailəsinə təqdim edilib

*Mayın 20-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Naxçıvan Muxtar Respublikası sahəsində düşmənin növbəti təxribatının qarşısını alarkən şəhid olmuş əsgər Adil Əli oğlu Tatarovun təltif olunduğu "Şücaətə görə" medalı ailəsinə təqdim edilib.*



Bu münasibətlə Ağstafa rayonunun Qıraq Kəsəmən kəndində şəhid əsgərin 19 il öncə dünyaya göz açdığı ata ocağında Müdafiə Nazirliyinin rəsmilərinin, rayon rəhbərliyinin, hərbi qulluqçuların, eləcə də ictimaiyyət nümayəndələrinin iştirakı ilə mərasim keçirilib.

Əvvəlcə ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi uğrunda şəhid olanların xatirəsi ehtiramla yad edilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Əməkdar İncəsənət Xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani mərasimi açaraq bildirib ki, bir neçə gün öncə Ermənistanın yeni təyin olunmuş müdafiə və xarici işlər nazirlərinin qoşunların bu istiqamətdə qarşıdurma xəttinə səfər etməsi ilə sərhəddə yenə də insident baş verib. Şübhə yoxdur ki, əsgərimiz onların məkrli və hiyləgər təbliğatı nəticəsində şəhid olub. Azərbaycan Ordusu düşmənin cavabını qısa vaxtda artıqlaması ilə verəcək.

Qeyd olunub ki, Ermənistanın siyasi-hərbi rəhbərliyi 2016-cı ilin aprel döyüşlərindən nəticə çıxarmaq əvəzinə, yenidən cəfəngiyat, yalan, böhtan dolu bəyanatlar verməklə məşğuldur. Düşmən bilməlidir ki, Azərbaycan heç bir zaman itirilmiş torpaqlarında ikinci "erməni dövləti"nin yaradılmasına imkan verməyəcək.

Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev çıxış edərək, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından şəhidin ailəsinə, doğmalarına bir daha dərin hüznlə başsağlığı verib, səbir arzulayıb.

Nazir müavini deyib: "Azərbaycan əsgəri səngərdə hər zaman ayıq-sayıq dayanıb, düşmənin istənilən təxribatının cavabı layiqincə və artıqlaması ilə verilir. Çünki ordumuzda Mübariz İbrahimov, Fərid Əhmədov, Çingiz Qurbanov, Adil Tatarov kimi oğullar yetərincədir. Azərbaycan əsgəri yaxşı bilir ki, o, öz Vətənini, öz ailəsini, öz ata-anasını, bacı-qardaşını qoruyur. Azərbaycan əsgəri əmindir ki, onun arxasında böyük Azərbaycan xalqı, Azərbaycan dövləti, Azərbaycan Prezidenti durub. Şəhid olarsa şəhid kimi, qazi olarsa qazi kimi xidmətləri yüksək qiymətləndiriləcək, adı əbədiləşdiriləcək, xatirəsi həmişə əziz tutulacaq".



Sonra əsgər Tatarov Adil Əli oğlunun ölümündən sonra təltif olunduğu "Şücaətə görə" medalı ailəsinə təqdim edilib.

Şəhidin atası Əli Tatarov, Ağstafa rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev, Xalq artisti Tariyel Qasımov, şəhid qardaşı Şahin Cəlilov, şəhidin müəllimi Turan Yaqubəliyev və başqaları çıxış edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Mərasimdə "Şəhidlər ölməz, Vətən bölünməz!", "Ali Baş Komandanın hər bir əmrinə hər an hazırıq!" şüarları səsləndirilib.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Müdafiə naziri ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi ilə görüşüb

Mayın 23-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşik ilə görüşüb.

Görüşdə qoşunların təmas xəttindəki hazırkı vəziyyət, keçirilən monitorinqlərin nəticələri və münaqişənin həllinə dair fikir mübadiləsi aparılıb.

## Beynəlxalq humanitar hüquq üzrə seminar keçirilib

Mayın 23-də Beynəlxalq Hərbi Əməkdaşlıq idarəsində Müdafiə Nazirliyi və Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycandakı nümayəndəliyi ilə qarşılıqlı əməkdaşlıq çərçivəsində seminar keçirilib.

Seminarda çıxış edən BQXK-nın Azərbaycandakı nümayəndəsi İlahə Hüseynova iştirakçıları müharibə gedən ölkələrdə əməliyyatlar zamanı davranış qaydaları, beynəlxalq hərbi qanunvericilik və normaları ilə tanış edib.

Görüşdə şəxsi heyətə mülki əhalinin təhlükəsizliyinin təmin edilməsi üçün qabaqlayıcı tədbirlərin görülməsi, yaralananların qorunması, münaqişələr zamanı mülki şəxslərə dəstək verilməsi barədə informasiya da çatdırılıb.

Tədbirdə qurumun fəaliyyəti ilə bağlı videoçarxlar nümayiş olunub.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*25 may 2018-ci il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 94 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Paravakar, Noyemberyan rayonunun Şavarşavan kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Qaymaqlı, Quşçu Ayrım və Qızılhacılı kəndlərində, Berd rayonunun Çinari kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Nəmirli, Şıxlar, Baş Qərvənd, Kəngərli, Novruzlu, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# "Müasir dövrdə dini təhlükəsizlik, ictimai-siyasi təhlükəsizliyin prioritet istiqamətləri" mövzusunda tədbir keçirilib



*Müdafiə Nazirliyi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə Hərbi Dəniz Qüvvələrində "Müasir dövrdə dini təhlükəsizlik, ictimai-siyasi təhlükəsizliyin prioritet istiqamətləri" mövzusunda tədbir keçirilib.*

Tədbirdə DQİDK-nın əməkdaşı, hərbi hissənin zabit və gizir heyəti iştirak ediblər.

DQİDK sədrinin müavini Səyavuş Heydərov dini radikalizmi doğuran səbəblərdən, İslam dünyasında baş verən proseslərdən danışıb. O, bildirib ki, radikalizmi doğuran başlıca səbəblərdən biri İslam dini haqqında məlumatsızlıq və yanlış yönləndirilmədir.

1-ci dərəcəli kapitan Natiq Bağırov çıxış edərək milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində dövlət tərəfindən həyata keçirilən tədbirlər barədə iştirakçılara geniş məlumat verib.

Tədbirin sonunda iştirakçılara "Şəhadət" filmi nümayiş etdirilib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# BVF: Ermənistan Cənubi Qafqazda ən yoxsul ölkədir

Ermənistan Cənubi Qafqazda ən yoxsul ölkədir. Bu faktı təsdiqləyən məlumatlar Beynəlxalq Valyuta Fondunun (BVF) növbəti hesabatında əksini tapıb. Alıcılıq qabiliyyəti pariteti (AQP) əsasında adambaşına düşən ümumi daxili məhsulun (ÜDM) əsas maddə kimi götürüldüyü hesabatda dünya ölkələrinin iqtisadi göstəriciləri verilib.

AZƏRTAC "Kavkaz Online" analitik informasiya portalına istinadla xəbər verir ki, bu hesabata əsasən, alıcılıq qabiliyyəti pariteti əsasında adambaşına düşən ÜDM 2018-ci ilin sonunda 10 min dollar olacaq. Bu göstərici 2017-ci ildə 9,4 min dollar olub. Ermənistan bu göstərici üzrə 192 ölkə arasında 113-cü yeri tutub. Bundan başqa, bu göstərici Cənubi Qafqaz ölkələri arasında ən aşağı göstəricidir.

Ermənistan Milli Statistika Komitəsinin məlumatına görə, 2017-ci ildə respublikada ÜDM-in həcmi 5 580,1 milyard dram və ya təxminən 11,5 milyard dollar (2017-ci ildə məzənnə - 1 dollar təxminən 482,72 dram) olub. 2017-ci ildə Ermənistanda iqtisadi yüksəliş 7,5 faiz olub.

AQP müxtəlif ölkələr arasında yaşayış həyat şəraitinin səviyyəsini müqayisə etmək üçün iqtisadi inkişaf səviyyəsini müəyyənləşdirir, ölkədə yaşayışın təxmini dəyərini və inflyasiya tempini nəzərə alır.

# Əlahiddə Ümumqoşun Ordunun müdafiə zolağında qış mövsümündən sonra mühəndis işləri aparılır

*Təsdiq olunmuş plana uyğun olaraq, Əlahiddə Ümumqoşun Ordunun mühəndis-istehkam hissə və bölmələri qış mövsümündən sonra müdafiə zolağında fortifikasiya qurğularının təkmilləşdirilməsi məqsədilə mühəndis işlərinin aparılmasına başlayıb.*



AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, daimi dislokasiya məntəqələri ilə mövqelər arasında təminat yollarının, səngərlərin, sığınacaqların, müşahidə məntəqələrinin təkmilləşdirilməsi, qış mövsümündən sonra istifadəyə yararsız daşıma və təxliyə yollarında təmir-bərpa işlərinin aparılması, müdafiənin ara boşluqlarının möhkəmləndirilməsi məqsədilə əlavə mühəndis təminatı tapşırıqları yerinə yetirilib.

Bütün növ təminatların təmin edilməsinin asanlaşdırılması məqsədilə yüksək dağlıq şəraitində yerləşən mövqelərə Əlahiddə Ümumqoşun Ordunun mühəndis-istehkam hissə və bölmələri tərəfindən yeni təminat yollarının çəkilməsi üzrə işlər hazırda davam etdirilir.

2018-ci ilin hazırlıq planına uyğun olaraq, Əlahiddə Ümumqoşun Ordunun xüsusi qoşun növlərinin bölmələri praktiki və səhra vərdişlərinin artırılması məqsədilə təlim mərkəzləri və poliqonlara çıxarılıb. Bölmələr real döyüş şəraitinə yaxınlaşdırılmış mürəkkəb şəraitdə tapşırıqlara uyğun olaraq praktiki məşq etdirilib.

Bütün kateqoriyalı komandirlərin praktiki bilik və bacarıqlarının təkmilləşdirilməsi, şəxsi heyətdə döyüş əzminin artırılması üzrə məşğələlər keçirilir.




# Azərbaycan Astanada keçirilən "KADEX-2018" beynəlxalq müdafiə sərgisində iştirak edir

Mayın 23-də Qazaxıstanın paytaxtı Astanada "KADEX-2018" beynəlxalq müdafiə sərgisi işə başlayıb.

AZƏRTAC xəbər verir ki, mayın 26-dək davam edəcək sərgidə Azərbaycanın Müdafiə Sənayesi nazirinin müavini Tofiq Rəfiyevin rəhbərliyi ilə nümayəndə heyəti iştirak edir.

Qazaxıstan Prezidenti Nursultan Nazarbayev sərginin açılışında çıxış edərək bildirib: "Qazaxıstan bütün yaxın və uzaq qonşular ilə mehriban qonşuluğun möhkəmlənməsinə yönəldilmiş sülhsevər siyasət yürüdür. Lakin dünyada hazırkı vəziyyətə görə ölkəmizin müdafiə qabiliyyətini möhkəmləndirməliyik. Biz Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı çərçivəsində bu məqsədə nail olmağa çalışırıq".

Sərgidə müdafiə sənayesi kompleksi və kosmik sənaye sahəsində yerli və xarici müəssisələr, aparıcı dizayn büroları və informasiya təhlükəsizliyi sahəsində tədqiqat institutları iştirak edirlər.

"KADEX-2018" beynəlxalq müdafiə sənayesi sərgisində yenilik olaraq Qazaxıstanda Kosmos Günləri beynəlxalq forumu keçirilir.

Sərgidə ilk dəfə olaraq yerli və dünya kosmonavtika nailiyyətlərinə həsr olunan ayrıca pavilyon təqdim edilir.

Bu sərgidə ən böyük milli pavilyonla Türkiyə təmsil olunur.

# "Ali Baş Komandanın əmrinə biz də hazırıq"

Kamil Xaçmazdandı. Hərbçi olmaq istəyib Kamil. Babası Şahbaba Böyük Vətən müharibəsi iştirakçısıdı. Onun xatirələri yeniyetmə Kamilin peşə seçimində təsirsiz ötüşməyib. Həqiqi hərbi xidmətə çağırılıb. Tərtər, Ağdərə, Ağdam rayonlarının müdafiəsində iştirak edib, - döyüşüb. 1994-cü ilin fevralında Tərtər istiqamətində gedən döyüşlərdə yaralanıb. Müalicədən sonra yenidən xidmətə qayıdıb. "Hər gün mənə ay qədər uzun görünürdü. Darıxmaq nədi, ürəyim sıxılırdı, əsgər yoldaşlarımın sırasında olmaq, döyüşmək istəyirdim..." - Kamilin qaşları çatılır; ötənləri xatırlamaq, ötənləri yenidən yaşamaq onun düşüncələrini titrədir...

Hərbi hissənin göndərişi ilə Ali Hərbi Məktəbdə təhsil almağa göndərilib. "Babamın xatirələrini həmişə maraqla dinləyirdim. Onda hərbçi olmaq niyyətim yoxuydu. Əsgər kimi komandirlərimin əmr və göstərişlərini məsuliyyətlə yerinə yetirirdim. Tərxis ediləndə komandirim məni təhsil almağa göndərmək istədiklərini bildirdi. O anlarda babamdan eşitdiklərim düşdü yadıma. Və qətiyyətlə zabit olmaq istədiyimi dedim. Taleyimdən çox razıyam ki, zabit oldum, Vətənə xidmət etdim. Özümü indi də sırada hiss edirəm..." - belə deyir Kamil, əsl vətəndaş qətiyyətiylə deyir...

Həvəslə oxuyub, həvəslə öyrənib, təlimlərdə fəallıq göstərib. Təmas xəttində xidmət etməyi arzulayıb. "O, xoş təsadüfi heç zaman unutmaram", - Kamil belə deyir. "Hərbi xidmətimin ilk günlərində komandirlərimin, zabit yoldaşlarımın məsləhətləri, tövsiyələri zamanında öyrəndiklərimin davamı oldu, onları tamamladı...".

Aprel döyüşlərində onun komandiri olduğu taborun şəxsi heyətinin bir hissəsi də döyüşürdü. Yuxarı komandanlığın onlara həvalə etdiyi tapşırıq - əmr böyük məsuliyyətlə yerinə yetirildi. - Talış kəndinin sağ cinahında döyüşürdülər. Döyüşdə onlarla düşmən öldürüldü, yaralandı. Az sonra əks-hücuma keçmək istəyən düşmən ciddi müqavimətlə üzləşdi, itki verərək geri çəkildi; yüksəkliyin sağ qanadı ermənisizləşdirildi...

Ehtiyatda olan polkovnik-leytenant Kamil Muradov 3 oğul atasıdı. "Kənan IV sinifdə oxuyur. Döyüşlər başlayarsa əsgər oğlum öz yerində, tələbə oğlum Elvin də, mən də döyüşəcəyik. Torpaqlarımızın işğaldan azad edilməsində üçümüz də iştirak edəcəyik..." - Kamil belə deyir. Həm də deyir ki, aprel döyüşləri - aprel zəfəri Böyük Qələbəmizin başlanğıcıdı. Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməyə qadirdir...

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

*Döyüş hazırlığı*

# Torpaqlarımız bizi gözləyir

*Müasir standartlara cavab verən Azərbaycan Ordusunun peşəkar orduya çevrilməsində ölkəmizin ildən-ilə artan iqtisadi inkişaf tempi mühüm rol oynayır. Eyni zamanda ölkədə ordu quruculuğu işinin dövlət rəhbərliyi səviyyəsində prioritet elan olunması bu sahədə kompleks tədbirlərin həyata keçirilməsi ilə müşahidə olunur. Bu gün Azərbaycan Ordusu sürətlə güclənir və günün tələblərinə uyğun qurulur. Artıq güclü ordular sırasında mühüm yer tutan ordumuz təkcə texniki təchizatının deyil, həm də peşəkarlığının artırılmasını da diqqət mərkəzində saxlayır.*

Hər bir qoşun növünün döyüşdə qələbənin qazanılmasında müstəsna rolu var. Onlar ayrı-ayrılıqda fərqlənsə də, özəlliyi ilə seçilsə də, döyüş zamanı bir-birini tamamlayır. Döyüşün uğurla başa çatdırılmasında və qələbənin təmin edilməsində mühüm rol oynayan vasitələrdən biri də hərbi bölmələr arasında möhkəm və etibarlı rabitə əlaqəsinin təmin edilməsidir.

Döyüş zamanı rabitəçilərin qarşıya qoyulan ən mürəkkəb tapşırıqları müvəffəqiyyətlə yerinə yetirməyə hazır olduğunu, onların döyüş qabiliyyətini və peşəkarlığını, yeni rabitə vasitələrindən ustalıqla istifadə etmək bacarığını əhəmiyyətli dərəcədə artırmaq məqsədilə hər il Azərbaycan Ordusunda "Ən yaxşı komanda-qərargah maşını heyəti" adı uğrunda təlimlər keçirilir. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun 2018-ci il üçün təsdiq etdiyi plana uyğun olaraq, bu il də hərbi hissələr arasında "Ən yaxşı komanda-qərargah maşını heyəti" adı uğrunda yarışlar baş tutub. 2017-ci ildə Azərbaycan Ordusu üzrə birinciliyi qazanan "N" hərbi hissəsinin rabitəçiləri bu il də Artilleriya qoşunları üzrə keçirilən yarışlarda birinci olublar. Rabitəçilərlə görüşüb yarış barədə təəssüratlarını öyrənirik.



Çavuş Tarıyel Muxtarov söhbətə Ali Baş Komandan İlham Əliyevin sözləri ilə başlayır: "...Azərbaycan Ordusu dünyanın ən güclü ordularından biridir. Artıq ordumuzun adı dünyanın güclü orduları sırasında çəkilir". Ali Baş Komandanımızın söylədiyi bu fikirlər hər bir hərbi qulluqçunun qarşısına böyük məsuliyyət qoyur. Bizim isə hərbi qulluqçu kimi borcumuz rəhbərlik tərəfindən qarşımıza qoyulan etimadı doğrultmaqdı".

"Rəhbərlik etdiyim heyət 2015-ci və 2017-ci illərdə keçirilən yarışların birincisi oldu. Bu il də Artilleriya qoşunları səviyyəsində keçirilən yarışların birincisi olmuşuq. 2018-ci ildə də hədəfimiz Azərbaycan Ordusu üzrə keçirilən yarışların birincisi olmaqdı. Bu birincilik asan başa gəlmir və ixtisas hazırlığı zamanı keçirilən məşğələlərdə topladığımız təcrübənin hesabına qazanılır. Birinci olmaq hər zaman şərəfli və məsuliyyətlidi. Aprel döyüşləri də sübut etdi ki, qələbənin təmin olunmasında rabitənin əhəmiyyəti böyükdür. Döyüş zamanı rabitəçinin üzərinə ikiqat məsuliyyət düşür. Rabitəçi həm silah çiynində döyüşür, həm də döyüş zamanı rabitəni təmin edir. Rabitəmiz olmasa, idarəçilik təmin edilə bilməz. İdarəçilik təmin edilməsə, döyüşdə uğur qazanmaq olmaz", - deyə çavuş Tarıyel Muxtarov bildirdi.

Əsgərlər Fuad Tağızadə və Murad Arzumanov isə bildirdilər ki, yarışlar 8 normativ üzrə keçirildi. "Nəzəri mərhələdə test üsulu ilə yazılı imtahan oldu. Yarışın praktiki mərhələsində isə antennaların yığılıb-açılması, antennaların ələqə ilə açılması, sürücü tərəfindən generatorların işə hazırlanması, ümumi komanda-qərargah maşınının döyüş vəziyyətinə gətirilməsi normativləri yerinə yetirildi. Komandamız 11 dəqiqəyə yerinə yetirilməsi nəzərdə tutulan normativi 5-6 dəqiqə ərzində həyata keçirdi".

Əsgərlər onu da qeyd etdilər ki, bizim hər birimizin ürəyində qələbə arzusu, işğal olunmuş doğma Qarabağımızın azad edilməsi arzusu var. "Biz ulu torpaqlarımızın həsrətindəyik. Ana qucağı qədər əziz, ana nəfəsi tək doğma olan torpaqlarımız bizi gözləyir. Hər birimizin ən böyük arzusu qələbədir, işğal olunmuş torpaqlarımızın, doğma Qarabağımızın geri qaytarılması, azad olunmasıdır. Ali Baş Komandanımızın etibar etdiyi regionun ən güclü ordusunun sayəsində xalqımızın həsrətlə gözlədiyi qələbə sevinci tezliklə gerçəkləşəcək, Qarabağ həsrətinə son qoyulacaq."

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU



# Bakıda ƏİK kəşfiyyat bölüyünün özünü qiymətləndirmə üzrə təlimi keçirildi

*Bakıda NATO-nun Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) çərçivəsində Azərbaycan Ordusunun kəşfiyyat bölüyünün 2-ci səviyyəli özünü qiymətləndirmə təlimi keçirildi.*



Qaraheybət Təlim Mərkəzində keçirilən səhra təliminə Azərbaycan Ordusunun 150 nəfərə yaxın şəxsi heyəti, 20-dək hərbi texnikası və iki helikopteri cəlb olunub.

Bölüyün qiymətləndirilməsi NATO Quru Qoşunları Komandanlığının monitorinq qrupu tərəfindən aparıldı.

Təlimdə, həmçinin müşahidəçi və qiymətləndirici qismində Böyük Britaniya, Fransa, Avstriya və Almaniyanın hərbi qulluqçuları iştirak etdilər.

Silahlı münaqişələr zamanı beynəlxalq humanitar hüquq normalarının hərbçilər arasında yayılmasına və tətbiqinə dəstək olmaq məqsədilə Beynəlxalq Qızıl Xaç Komitəsi də təlimə cəlb olunmuşdu.

* * *

Mayın 24-də Qaraheybət Təlim Mərkəzində davam edən NATO-nun Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) proqramı çərçivəsində Azərbaycan Ordusunun kəşfiyyat bölüyünün 2-ci səviyyəli özünü qiymətləndirmə təlimində yüksək səviyyəli qonaqlar günü keçirilib.

Müdafiə Nazirliyinin general heyəti ilə birgə Şimali Atlantika Alyansının Quru Qoşunları Komandanlığının qərargah rəisi diviziya generalı Erhan Uzun və ölkəmizdə akkreditə olunmuş xarici dövlətlərin hərbi attaşeləri təlimi izləyiblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# O gün o yol qədər uzaqda deyil



Peşə insan üçün xəzinədir, - deyirlər. İnsan həyatda elə peşə seçməlidir ki, həm özünün bu peşəyə sevgisi, məhəbbəti olsun, həm də Vəteninə, millətinə xeyir verə bilsin. Hər bir azərbaycanlı tutduğu vəzifəsindən asılı olmayaraq, Vətəninin qədrini bilməli, ona sədaqətlə yanaşmalı və bayrağını uca tutmalıdır. Vətən sevgisi, Vətən borcu anlayışları daim ürəyində və gözlərinin nurunda olmalıdır.

"N" hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Şəhadət Mehtiyevlə həmsöhbət oldum. Qazax rayonunda dünyaya göz açıb. Sürücü vəzifəsində xidmət edən Şəhadətin öz peşəsini qeyri-adi vurğunluqla sevməsi aydın sezilirdi. Bölmənin mənəvi-psixoloji hazırlığına cavabdeh zabit kapitan Ayaz Qasımov da kiçik çavuş Şəhadət Mehtiyevin xidmətə başladığı gündən işində ciddi nizam-intizamlı olması və peşəkar xüsusiyyətləri ilə seçilməsini qeyd etdi.

Söhbət zamanı müsahibim bildirdi ki, sürücü olmaq, avtomobil idarə etmək onun uşaqlıq arzusu olub: "Müddətli xidmət dövründə də sürücü olmuşam. Ordu sıralarından tərxis olunduqdan sonra bir müddət fərqli işlə məşğul oldum. Lakin Vətən məhəbbəti hər şeyə güc gəlir. Artıq 8 ildir ki, sürücü vəzifəsində xidmət edirəm."

"Gərək seçdiyin peşənin sirlərinə dərindən yiyələnəsən", - deyə Şəhadət qeyd etdi ki, sürücülük peşəsi diqqət və məsuliyyət tələb edir: "Hər cür hava şəraitində, nahamar, sərt, enişli-yoxuşlu yollarda avtomobil idarə etmək, şəxsi heyəti sağ-salamat təyin olunan yerə çatdırmaq insandan birə-beş məsuliyyət və təcrübə tələb edir. Bunun üçün insanda uzun illərin vərdişi, eyni zamanda səriştə olması vacibdir. Bəzən elə ola bilər ki, apardığın şəxsi heyət və ya döyüş sursatı həyata keçirilən əməliyyatın gedişində dönüş yaradacaq qədər əhəmiyyətli olar."

Avtomobilin saz vəziyyətdə olmasının əhəmiyyətinə toxunan Şəhadət Mehtiyev bunun üçün ona mütəmadi texniki qulluq göstərməyin vacib olmasına diqqət çəkdi. "Vaxtlı-vaxtında nəqliyyat vasitəsinin hissə və mexanizmlərinə göz gəzdirilməli, onlar tozdan təmizlənməli və yağlanmalıdır. Mühərriki işə salmazdan əvvəl avtomobilin yanacaq, yağ və maye ilə tam dolu olmasına nəzarət etmək lazımdır. Şinlərdə olan havaya da fikir verilməlidir."

Kiçik çavuş Şəhadət Mehtiyev həmişə aprel döyüşləri kimi qələbə soraqlı döyüşlərin iştirakçısı olmaq arzusundadı: "Hər dəfə sükan arxasında əyləşəndə işğal olunmuş torpaqlarımıza getmək istəyi ilə mühərriki işə salıram. O gün o yol qədər uzaqda deyil. O yolda şəhidlik zirvəsinə ucalsaq da, üçrəngli bayrağımız Qarabağda dalğalanacaq."

**Leytenant Samir HÜSEYNOV, "Azərbaycan Ordusu"**

# "Vətən uğrunda!" səyyar təşviqat dəstəsi əsgərlərlə görüşüb




"Vətən uğrunda!" səyyar təşviqat dəstəsi Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaradılmasının 100 illik yubileyi münasibətilə "N" hərbi hissəsində tədbir keçirib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə Şərqdə ilk demokratik respublikanın yaranma tarixi, keçdiyi inkişaf yolu haqqında məlumat verilib. Bildirilib ki, AXC-nin yaradılması xalqımızın azadlıq, müstəqillik arzusu ilə yaşaması əzmini bir daha nümayiş etdirib.

Polkovnik-leytenant Rüstəm Məmmədov vurğulayıb ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin qarşımızda qoyduğu mühüm vəzifələrin müvəffəqiyyətlə həyata keçirilməsi nəticəsində ordumuzun döyüş hazırlıq səviyyəsi, döyüş qabiliyyəti və şəxsi heyətin vətənpərvərlik ruhu gündən-günə artmaqdadır.

Sonra Gəncə Qarnizonu Zabitlər Evinin hazırladığı AXC-nin 100 illiyi ilə bağlı qısametrajlı film nümayiş etdirilib.

"Əsgərə məktub" layihəsi çərçivəsində AXC-nin yaradılmasının 100 illik yubileyi münasibətilə şagirdlərin əsgərlərə yazdığı təbrik məktubları təqdim olunub.

# Şahdağ zirvəsində Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı poster açılıb

Bir qrup alpinist Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi münasibətilə Böyük Qafqazın ən yüksək dağ zirvələrindən olan Şahdağ zirvəsinə yürüş edib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, dəniz səviyyəsindən 4242 metr yüksəklikdə yerləşən zirvəyə yürüş "Everest" idman klubunun təşəbbüsü ilə reallaşıb. On beş nəfərlik alpinist qrupunun Şahdağa yürüşü mayın 22-dən başlayıb və iki gün davam edib. Mayın 23-də zirvəyə çatan alpinistlər orada Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı poster açıblar.

Yürüşdən əvvəl alpinistlər ötən ilin dekabr ayında itkin düşmüş dağçılar Babur Hüseynov, Fəridə Cəbrayılzadə və Namin Bünyətzadənin qar uçqunu altında qaldığı yeri ziyarət ediblər.

# Qürur, bayram, dövlətçilik

Azərbaycan qədim dövlətçilik tarixinə malikdir. Zamanında mövcud olmuş qüdrətli Azərbaycan dövlətləri dünyəvi siyasətiylə tanınırdı. Xalq dövlətçiliyi uğrunda həmişə mübarizə aparıb. Şərqdə ilk diplomat qadın da azərbaycanlı olub - Ağqoyunlu hökmdarı Uzun Həsənin anası Sara xatun.

Gülüstan müqaviləsi Azərbaycanın müstəqilliyini parçaladı. Lakin xalq tarixin gedişini dəyişmək, dövlətçiliyini bərpa etmək üçün mübarizəsini davam etdirdi. Nəhayət, 1918-ci il mayın 28-də Azərbaycanın dövlət müstəqilliyi haqqında bəyannamə qəbul edildi, Şərqdə ilk demokratik dövlət yarandı - Azərbaycan Xalq Cümhuriyyəti. Qısa müddətdə dövlətçilik atributları təsis edilərək qəbul olundu. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət bayrağı qürurla dalğalandırıldı. Hamı inandı ki, Məmməd Əmin Rəsulzadənin dediyi kimi, bir kərə yüksələn bayraq, bir daha enməyəcək.

Dünyanın əksər dövlətləri ilə diplomatik əlaqələr quruldu.

Qısa müddətdə dövlət müstəqilliyini və ərazi bütövlüyünü qoruyan ordu yaradıldı. Səməd bəy Mehmandarov, Əlağa Şıxlinski, Cəmşid Naxçıvanski,... kimi sərkərdələr bu orduda xidmətə başladı; Azərbaycanda ordu quruculuğuna xüsusi diqqət yetirildi. Tam artilleriya generalı Əlağa Şıxlinskinin bilavasitə iştirakı ilə Milli Hərbiyyə Məktəbi fəaliyyətə başladı...

Azərbaycan Xalq Cümhuriyyəti dünyəvi dövlət idi. Dövlətin rəsmi nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edirdi ki, bu da istər dövlətin tanıdılmasında, istərsə də müxtəlif miqyaslı əlaqələrin formalaşmasında əhəmiyyətli idi.

Dövlətçilik atributu olan bayraq həm də dövlətin hansı amallar üçün yaşadıldığının rəmzidir. Azərbaycan Xalq Cümhuriyyəti müasirləşmə, türkləşmə, islamlaşma məramlı dövlət kimi tanınırdı.

Bunların hamısının başlanğıcı 28 may tarixi idi. 28 aprel tarixi 28 may tarixini unutdura bilmədi; xalq yüksəltdiyi bayrağı ruhun ucalığında dalğalandırdı, 1991-ci ilin noyabrında - 71 ildən sonra yenidən var səsiylə "Bayrağım - varlığım, bəxtiyarlığım!" - dedi...

Tariximizə, mədəniyyətimizə, incəsənətimizə, ədəbiyyatımıza olduqca həssas yanaşan, onların öyrənilməsini tövsiyə və tələb edən böyük tarixi şəxsiyyət Heydər Əliyev müasir Azərbaycanı Xalq Cümhuriyyətinin varisi elan etdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi haqqında sərəncam imzaladı.

...Hələ neçə yüz illər keçəcək, 28 may tarixi qürur, sevinc, dövlətçilik bayramı kimi yaşadılacaq. O tarixi yazanların ruhu həmişə ehtiramla anılacaq.

**Mübariz MUSAYEV, "Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Suallar:**

**1. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ordu quruculuğu.**

**2. Azərbaycan Ordusunun yaranmasının hüquqi əsasları və inkişaf mərhələləri.**

**Mövzu:** Azərbaycan Ordusunun yaranması və formalaşması tarixi.

### *Azərbaycan Xalq Cümhuriyyəti dövründə ordu quruculuğu*

Azərbaycanda ordu quruculuğunun əsasının qoyulması 1918-ci ilə təsadüf edir. Həmin il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra təşkil olunmuş ilk hökumət kabinetinin tərkibində Hərbi Nazirlik də var idi. Azərbaycanın tanınmış ictimai-siyasi xadimi olmuş Xosrov bəy Sultanov isə Hərbi nazir vəzifəsinə təyin olunmuşdu. Həmin dövrdə Azərbaycan son dərəcə mürəkkəb hərbi-siyasi şəraitdə qərar tutduğundan və qısa müddət ərzində Azərbaycan xalqının müstəqilliyinə qənim kəsilmiş bolşevik-daşnak qüvvələrinin qarşısını almağa qadir olacaq hərbi qüvvələrin yetişdirilməsi mümkün olmadığından Azərbaycan hökuməti hərbi kömək üçün Osmanlı Türkiyəsinə müraciət etdi. 1918-ci il iyunun 4-də Azərbaycanla Osmanlı Türkiyəsi arasında imzalanmış müqaviləyə uyğun olaraq, Türkiyə hökuməti Azərbaycana hərbi yardım göstərmək və hərbi qüvvələr göndərmək qərarına gəldi. Həmin dövrdə Azərbaycanda mövcud olan milli hərbi qüvvələrin və Azərbaycana göndərilmiş olan Osmanlı hərbi qüvvələrinin bazasında Qafqaz İslam Ordusu yaradıldı. Nəticədə ordu quruculuğuna və ordu hissələrinin fəaliyyətinə rəhbərlik Azərbaycan hökumətinin razılığı ilə Qafqaz İslam Ordusu komandanına həvalə edildi. Ona görə Azərbaycan hökumətinin ilk kabinetinin tərkibinə daxil edilmiş Hərbi Nazirliyin təşkili müvəqqəti olaraq təxirə salındı.

Azərbaycanın Milli Ordu qüvvələrinin əsasını hələ Cümhuriyyətin elan edilməsindən əvvəl yaradılan və general-leytenant Əlağa Şıxlinski tərəfindən rəhbərlik edilən Müsəlman Korpusu təşkil edirdi. 1918-ci il iyunun 26-da Müsəlman Korpusunun adı dəyişdirilərək Əlahiddə Azərbaycan Korpusu adlandırıldı. Həmin gün hazırda Azərbaycan Ordusunun yaradılması günü kimi qeyd edilməkdədir.

Qafqaz İslam Ordusunun mövcudluğu dövrü Azərbaycan Xalq Cümhuriyyətinin ordu quruculuğunun birinci mərhələsini təşkil edir. 1918-ci il noyabrın 1-dən isə Cümhuriyyətin ordu quruculuğunun ikinci mərhələsi başlayır. Həmin tarixdə Azərbaycan hökuməti Hərbi Nazirliyin bərpa edilməsi haqqında qərar qəbul etdi. Nazirlər Şurasının qərarına əsasən, Azərbaycan hökumətinin rəhbəri Fətəli xan Xoyski Hərbi nazir vəzifəsini öz üzərinə götürdü. Rusiya ordusu sıralarında tam artilleriya generalı rütbəsinə qədər şərəfli xidmət yolu keçmiş Səməd bəy Mehmandarov isə Hərbi nazirin müavini təyin edildi və Hərbi Nazirliyin formalaşdırılması ona həvalə olundu.

Birinci Dünya müharibəsinin nəticələrinə görə, Hərbi Nazirlik 1918-ci il noyabrın 22-də Gəncəyə köçmək məcburiyyətində qaldı və 1919-cu il iyunun sonlarına kimi paytaxtdan və hökumət orqanlarından uzaqda fəaliyyət göstərməli oldu. 1919-cu il iyunun sonlarında Bakıya köçürülən Hərbi Nazirlik Krasnovodsk və Merkuri küçələrinin (indiki Zərifə Əliyeva və Səməd Vurğun küçələri) kəsişməsindəki binada yerləşdirildi və Cümhuriyyətin süqutuna qədər burada fəaliyyət göstərdi.

1918-ci il dekabrın 25-də Səməd bəy Mehmandarov Azərbaycan hökumətinin qərarı ilə Hərbi nazir, dekabrın 29-da isə general-leytenant Əlağa Şıxlinski hərbi nazirin müavini vəzifəsinə təyin edildilər. Cümhuriyyətin süqutuna kimi bir neçə hökumət kabineti dəyişsə də, Səməd bəy Mehmandarov və Əlağa Şıxlinski öz vəzifələrində dəyişməz olaraq qaldılar.

Azərbaycan hökuməti Hərbi Nazirliyin qarşısında ölkənin ərazi bütövlüyünü müdafiə etməyə qadir olan ordunun yaradılması vəzifəsini qoymuşdu. Hərbi Nazirliyin rəhbərləri Səməd bəy Mehmandarovun, Əlağa Şıxlinskinin və onların həmkarları olan general-mayor Həbib bəy Səlimovun, general-mayor Süleyman bəy Əfəndiyevin, general-mayor İbrahim ağa Usubovun, general-mayor Cavad bəy Şıxlinskinin və digərlərinin fədakar xidmətləri nəticəsində bu vəzifənin öhdəsindən uğurla gəldilər. Cümhuriyyətin süqutu ərəfəsində Azərbaycan Ordusunda hər biri üç piyada alayından ibarət olan iki piyada diviziyası, iki əlahiddə piyada diviziyası, üç alaydan ibarət olan süvari diviziyası, artilleriya briqadası və digər hissə və bölmələr mövcud idi. Məhz bu qüvvələrin vasitəsilə 1920-ci ilin martında Ermənistanın hərbi qüvvələrinin və Qarabağdakı separatçı qüvvələrin Azərbaycanın müstəqilliyinə qarşı geniş hərbi təcavüzünün qarşısını almaq mümkün oldu.

1920-ci il aprelin 28-də 70 mindən artıq bolşevik hərbi qüvvələrinin hərbi müdaxiləsi nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi. Azərbaycanda hakimiyyət bolşeviklərin əlinə keçdikdən sonra Hərbi Nazirliyin bazasında Azərbaycanın Hərbiyyə və Bəhriyyə Komissarlığı yaradıldı. Əvvəlcə Çingiz İldırım, sonra isə Əliheydər Qarayev hərbiyyə və bəhriyyə komissarı vəzifəsinə təyin edildilər.

1922-ci ilin sonlarına, yəni SSRİ təşkil edilənə kimi Hərbiyyə və Bəhriyyə Komissarlığı formal müstəqilliyini saxladı. Azərbaycan SSRİ-nin tərkibinə daxil edildikdən sonra Hərbiyyə və Bəhriyyə Komissarlığı nazirlik statusunu itirmiş oldu. Azərbaycanda hərbi işlərə rəhbərlik SSRİ mərkəzi orqanlarının səlahiyyətinə keçdi.

### *Azərbaycan Ordusunun yaranmasının hüquqi əsasları və inkişaf mərhələləri*

XX əsrin sonlarında ölkədə siyasi hakimiyyətin böhranlı hala düşməsi və müttəfiq respublikalarda milli-azadlıq hərəkatının genişlənməsi Azərbaycanda Müdafiə Nazirliyinin bərpası üçün real imkanlar açdı. 1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının Ali Soveti "Milli özünümüdafiə qüvvələrinin yaradılması haqqında" qərar qəbul etdi. Həmin qərarın əsasında respublika Prezidentinin 5 sentyabr 1991-ci il tarixli fərmanına əsasən, Azərbaycanda Müdafiə Nazirliyi təşkil edildi və milli ordunun yaradılmasına başlandı. 1991-ci il oktyabrın 9-da isə Respublika Ali Soveti tərəfindən ordu quruculuğunun hüquqi bazası olan "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" qanun qəbul edildi.

Lakin bir tərəfdən Azərbaycanın daxilində hərbi-siyasi vəziyyətin mürəkkəb olması, hakimiyyətdə olan qüvvələrin ordu quruculuğu sahəsində səmərəli siyasət izləyə bilməməsi, bir tərəfdən də ictimai-siyasi hərəkatların ordu daxilində qarışıqlıq yaratmaq cəhdləri, 6 ay ərzində Müdafiə naziri vəzifəsinə 4 dəfə təyinat aparılması həm Müdafiə Nazirliyinin, həm də Azərbaycan Ordusunun formalaşmasına dağıdıcı təsir göstərdi.

Azərbaycanda Müdafiə Nazirliyinin və ordunun real şəkildə formalaşdırılması ulu öndər Heydər Əliyevin 1993-cü il noyabrın 2-də radio və televiziya ilə xalqa müraciətindən sonra başladı. Ordu və Müdafiə Nazirliyi qeyri-sağlam qüvvələrdən təmizləndi, orduya yeni qüvvələr cəlb edildi, ordu quruculuğunda köklü dəyişikliklər həyata keçirildi. Nəticədə qısa müddət ərzində ordu yenidən quruldu, təşkilatlandı və Azərbaycanın müstəqilliyinin müdafiəsində dayanmağa qadir olan bir qüvvəyə çevrildi.

Ümummilli lider Heydər Əliyevin ordu quruculuğunun bu mərhələsində apardığı işlərin hərbi-siyasi nəticəsi olaraq ordu daxilində dərinləşməkdə olan böhranın qarşısı alındı və bu sahədə keyfiyyət dəyişikliyi yarandı.

Ümummilli lider Heydər Əliyevin Azərbaycan Ordusuna göstərdiyi diqqət və qayğının nəticəsində vahid komandanlıq prinsipi bərqərar edildi, ordunun maddi-texniki təminatı əvvəlki illərdən fərqli olaraq əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı, hərbi hissə və birləşmələrin maddi-texniki, tibbi və digər vasitələrlə təmin edilməsi təşkil olundu, maliyyə-təsərrüfat fəaliyyəti nizama salındı. Azərbaycan Ordusuna tələb olunan silah, hərbi texnika, döyüş sursatı, arxa xidmət əmlakı və digər maddi vasitələrin Azərbaycan Respublikasının sənaye müəssisələrində istehsal edilməsi ölkə iqtisadiyyatının inkişafına da təkan verdi. Orduda şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı, hərbi vətənpərvərlik işi gücləndirildi.

1993-cü il dekabrın 10-da Beyləqan istiqamətində hücuma keçən Ermənistan silahlı qüvvələri ilk dəfə ordumuzun mütəşəkkil müqaviməti ilə qarşılaşdı. Dekabr ayının sonlarında Goranboy, Tərtər və Ağdam istiqamətlərində düşmənin hücumlarının qarşısı alındı, onun xeyli canlı qüvvəsi və texnikası məhv edildi. Füzuli-Beyləqan istiqamətində əks-hücuma keçən qoşunlarımız işğal olunmuş torpaqlarımızın bir hissəsini azad edərək düşmənin bu istiqamətdə yerləşən hərbi qruplaşmasını darmadağın etdilər. Belə bir şəraitdə ermənilər danışıqlar stolu arxasına gələrək 1994-cü il mayın 12-də atəşkəs haqqında sənədə qol çəkməyə məcbur oldular və bununla da Azərbaycan Ordusunun yenidən qurulmasına şərait yarandı.

Azərbaycan Ordusu üçün zabit kadrlarının hazırlanması Müdafiə Nazirliyinin başlıca vəzifələrindən biridir. Burada keçmiş SSRİ dövründə milli zabit kadrlarımızın yetişməsində müstəsna əhəmiyyəti olan, 1971-ci ildə ümummilli liderimiz Heydər Əliyevin şəxsi təşəbbüsü ilə yaradılmış C.Naxçıvanski adına Hərbi Liseyin rolunu və tarixi əhəmiyyətini qeyd etmək vacibdir. Məhz bu təhsil ocağında təhsil alan gənclərimizin əsas hissəsi sonradan ali hərbi məktəblərə qəbul olunur. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində müasir standartlar səviyyəsində tədris bazası yaradılmış və peşəkar zabit kadrlarının hazırlanması həyata keçirilir.

Dövlətçilikdə varislik anlayışına önəm verən ulu öndər Heydər Əliyevin 22 may 1998-ci il tarixli fərmanı ilə 26 iyun Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü elan edildi. Bu gün iqtisadi yüksəlişi ilə diqqətləri özünə cəlb edən ölkəmiz yaradılmış qüdrətli ordusu ilə də hər bir azərbaycanlının qürur mənbəyinə çevrilib. Artıq bütün dünya Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın regionun ən qüdrətli ordusuna malik olduğunu təsdiq edir.

Ulu öndər Heydər Əliyevin 1999-cu il fevralın 20-də imzaladığı fərmana əsasən, Silahlı Qüvvələrin Hərbi Akademiyası fəaliyyətə başlamış, 2001-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzi yaradılmışdır. Mərkəzdə zabit heyətinin təkmilləşdirmə, ehtiyat zabit hazırlığı, gizir hazırlığı və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursları fəaliyyət göstərir.

Silahlı Qüvvələrin bütün növlərində, hərbi hissə və birləşmələrdə komanda-qərargah və taktiki təlimlər, döyüş hazırlığı dərsləri keçirilir, döyüş hazırlığı yüksək səviyyədə saxlanılır. Əldə olunan nəticələr bir daha sübut edir ki, ordu quruculuğu istiqamətində aparılan dövlət siyasəti Azərbaycan Ordusunun möhkəmlənməsi və peşəkarlığına xidmət edir.

Müasir müstəqil dövlətimizin memarı və qurucusu olan ulu öndər Heydər Əliyev həm də qüdrətli Azərbaycan Ordusunun yaradıcısıdır. Qarşısına qoyulan hər hansı tapşırığı yüksək səviyyədə yerinə yetirmək iqtidarına malik Azərbaycan Ordusu bu gün NATO standartlarına cavab verən səviyyədə formalaşmışdır. Bir mərkəzdən idarə edilən, vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusu ümummilli lider Heydər Əliyevin başladığı və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin uğurla davam etdirdiyi müdrik siyasət nəticəsində gündən-günə daha da möhkəmlənir, döyüş qabiliyyətini artırır. Ordu quruculuğunda mühüm rol oynayan kadr hazırlığı da ölkə rəhbərliyinin daim diqqət mərkəzindədir. Yüksək kadr potensialı və geniş maddi-texniki bazası olan yerli hərbi məktəblərlə yanaşı, hərbçilərimiz bir sıra vacib hərbi ixtisaslar üzrə təhsil almaq üçün Türkiyə, Rusiya, Ukrayna, Pakistan, Çin və digər ölkələrə göndərilir. Eyni zamanda Azərbaycan hərbçiləri NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramı çərçivəsində təşkil olunan müxtəlif ixtisasartırma və təlim kurslarında da yaxından iştirak edirlər. Azərbaycanın NATO ilə əlaqələri artıq "Fərdi Tərəfdaşlığın Fəaliyyət Planı" çərçivəsində inkişaf edir. Bu isə ölkəmizdə ordu quruculuğu prosesində növbəti nailiyyətlərin qazanılması üçün möhkəm təməl deməkdir.

2005-ci ildən bu günə qədər Müdafiə Sənayesi Nazirliyinin xətti ilə 900 adda hərbi təyinatlı silah-sursat istehsal olunub və bu gün bu proses davam etdirilir. Azərbaycanda ən müasir hərbi texnika, silah-sursatın istehsal olunması ilə bərabər, eyni zamanda xarici dövlətlərdən də alınması ilə üzrə fəaliyyətlər davam etdirilir.

Bu il Azərbaycan Silahlı Qüvvələrin yaradılmasının 100 illiyini qeyd edəcəkdir. Ordumuzda yüksək hərbi intizamın saxlanılması üçün müvafiq tədbirlər görülür, islahatlar aparılır. Azərbaycan Ordusu yeni inkişaf mərhələsinə qədəm qoyub. Hərbi hissələrin müasir standartlara uyğun qurulması, şəxsi heyətin həyat və məişət şəraitinin yaxşılaşdırılması, ordumuzun müasir silahlarla təminatı istiqamətində görülən işlər sayəsində Azərbaycan Ordusu dünyanın ən güclü orduları ilə bir cərgədə öz layiqli yerini tutub. Aprel döyüşləri Azərbaycan Ordusunun gücünü və işğal altındakı torpaqlarımızı qısa müddətdə azad etməyə qadir olduğunu bir daha göstərdi. Bu gün bizim ordumuz istənilən vəzifəni icra edə bilər və Silahlı Qüvvələr miqyasında keçirilən komanda-qərargah hərb oyunları və taktiki təlimlər bunun əyani sübutudur. Müasir döyüş taktikası tətbiq edilir, dünyada ən qabaqcıl təcrübə öyrənilir və Azərbaycan Ordusunda istifadə olunur. Regionda yaranmış hərbi-siyasi vəziyyət Azərbaycan Ordusunun hissə və birləşmələrinin daim döyüş hazırlıqlı, Azərbaycanın müstəqilliyinə və ərazi bütövlüyünə qarşı yönəldilən hər bir təcavüzə layiqli cavab verməyə qadir döyüş qabiliyyətinə malik olmasını tələb edir. Bu gün Azərbaycan əsgəri havada, suda və quruda Vətənin maraqlarını şərəflə qoruyur.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Azərbaycan dövlətinin bu istiqamətdə yürütdüyü siyasətin məğzini, məqsədini çox aydın və dürüst şəkildə belə ifadə edib: "Son illər ərzində maddi-texniki bazanın möhkəmdirilməsində böyük işlər görülmüşdür, çoxlu texniki avadanlıq, müasir silahlar alınmışdır və beləliklə, Azərbaycan Ordusu xeyli dərəcədə güclənmişdir. Biz bu prosesi davam etdirəcəyik. Azərbaycan müharibə şəraitində yaşayır və belə olan halda ilk növbədə ordu quruculuğuna böyük diqqət göstərilməlidir".

**Müdafiə Nazirliyi
Mənəvi-Psixoloji
Hazırlıq və İctimaiyyətlə
Əlaqələr İdarəsi**

Ordu və cəmiyyət

# "Şəxsi heyəti milli-mənəvi dəyərlərlə silahlanan ordu ən güclü ordudur"

*Rubrikamızın qonağı Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin həqiqi üzvü, İ.Nəsimi adına Dilçilik İnstitutunun direktoru akademik Möhsün Nağısoyludur.*



Akademik söhbətinə xalqımızın ümummilli lideri Heydər Əliyevin hərbi quruculuq məsələlərindən bəhs edən dərin məzmunlu çıxışından sitat gətirməklə başladı. "Ulu Öndər deyirdi: "...Ordu quruculuğu prosesi, təbii ki, təkcə maddi-texniki təminatla məhdudlaşmır. Döyüş qabiliyyəti, əsgər-zabit heyətinin mənəvi-psixoloji hazırlığı mühüm yer tutur. Mən tam əminliklə deyə bilərəm ki, bu baxımdan Azərbaycan Ordusu güclü ordular sırasındadır. Döyüş qabiliyyəti artır, orduda mənəvi-psixoloji vəziyyət çox müsbətdir, vətənpərvərlik ruhu, nizam-intizam yüksək səviyyədədir." Ümummilli Liderimiz hələ Sovet Azərbaycanına rəhbərliyi dövründə ölkədə hərbi quruculuq sahəsində ilk uğurlu addımlarını atmışdı. Belə ki, C.Naxçıvanski adına Hərbi Məktəbin yaradılması ordu quruculuğunda atılan uğurlu addımların başlanğıcı idi."

Müasir Azərbaycan Ordusunun Cümhuriyyət Ordusunun varisi hesab edildiyini deyən akademik onu da vurğuladı ki, ötən əsrin əvvəllərində təməli qoyulan, əsrin sonlarında müstəqillik illərində yenidən gerçəkliyə çevrilən ordu quruculuğu işləri Azərbaycanda yeni, mütərəqqi dəyərlər əsasında həyata keçirildi.

Direktor M.Nağısoylu ölkə başçısı cənab İlham Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin qeyd edilməsi, 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunması barədə imzaladığı sərəncamları, eyni zamanda respublikamızın Silahlı Qüvvələrinin 100 illiyinə hazırlığını dövlətçilik tariximizdə mühüm hadisə adlandırdı.

Akademik söhbətində Azərbaycan Xalq Cümhuriyyəti dövründə hökumətin verdiyi mühüm qərarlardan birinin də Ana dili məsələsi ilə bağlı olduğunu dedi və bu istiqamətdə atılan addımlardan danışdı: "Ana dili millətin ən böyük milli-mənəvi sərvətidir. Dünyada hər bir xalq dövləti, dili və dini ilə tanınır. Hər bir xalqın Ana dili onun varlığıdır, kimliyidir. Ulu öndər Heydər Əliyev deyirdi ki, xalqı xalq edən, milləti millət edən onun Ana dilidir. Cümhuriyyət dövründə kadrların əksəriyyəti, xüsusilə də hərbçi kadrlar çar Rusiyasında təhsil alıb, o ölkənin ordusunda xidmət etmişdilər. Ona görə də onların birdən-birə doğma Ana dilinə keçməsi asan məsələ deyildi. Ana dilində işlədilməsi gərəkli olan hərbi terminləri öyrənmək üçün vaxt tələb olunurdu. Çox sevindirici haldır ki, müstəqillikdən sonra ordu quruculuğunda əski türk sözləri işlədilərək yenidən həyata vəsiqə qazandı. Məsələn: taqım, çavuş, gizir, görürsünüz, necə gözəl səslənir. Hərbi quruculuqda Ana dili məsələsi Cümhuriyyət dövründə aktual olduğu kimi, müstəqillikdən sonra müasir ordu quruculuğunda da aktual idi və milli hərbi terminlərdən istifadə qaydaları əsas şərt kimi qəbul edilirdi. Nümunə olaraq deyə bilərəm ki, farağat, düzlən, hazır ol, atəş kimi terminlər Ana dilimizin daxili imkanları hesabına yaranan milli hərbi terminlərdir."

Sovet dönəmində təməli Ümummilli Liderimiz tərəfindən qoyulan C.Naxçıvanski adına Hərbi Məktəbdə Ana dilinin daha geniş tədris edildiyini, kursantların da əsasən azərbaycanlılardan ibarət olduğunu deyən Möhsün Nağısoylu söhbətinə davam edərək bildirdi ki, o dövrdə bizə təkcə kondisioner zavodu lazım deyildi, eyni zamanda gələcəkdə Ana dilini gözəl bilən milli hərbçi kadrları yetişdirən C.Naxçıvanski adına Hərbi Məktəb də lazım idi. Qarabağ müharibəsində, aprel döyüşlərində şəhidlik zirvəsinə ucalan və hünər göstərən vətənpərvər hərbçilərimizin sırasında həmin məktəbin məzunları da var idi.

Akademik dövlətimizdə Ana dili məsələsinin həm də azərbaycançılıq məfkurəsi ilə sıx bağlı olduğunu dedi: "Konstitusiyamızda ayrıca bir maddə - 21-ci maddə Ana dili ilə bağlıdır. "Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir". Ana dili məsələsi dövlət quruculuğu siyasətinin tərkib hissəsi olmaqla yanaşı, əsas amillərindən biri sayılır. Bütün bunların hamısı mənəviyyat məsələsidir. Şəxsi heyəti milli-mənəvi dəyərlərlə silahlanan ordu ən güclü ordudur. Cümhuriyyətin Ana dili haqqında qərarının qəbul edilməsindən də bir əsr vaxt keçir. Dilçilik institutu olaraq, Ana dilimizin keşiyində duran biz alimlər düşünürük ki, ayrıca sessiya keçirək."

Dilçi alim söhbətində Ana dilimizin geniş imkanlarından da bəhs etdi. "Böyük ziyalı Ömər Faiq Nemanzadə deyirdi ki, doğma Ana dilinə olan sevgi bütün sevgilərdən üstündür. Çünki biz ilk dəfə dil açanda ana deyirik. Mən fars, ərəb, ingilis dillərini bilirəm. İnanın ki, Azərbaycan dili dünya dilləri sırasında özünün ahəngdarlığına, musiqiliyinə, zəngin söz ehtiyatına görə seçilən dillərdən biridir. Ümumiyyətlə, müsəlman Şərqində üç dil - ərəb, fars və türk dili hakim dil olub. İslam mədəniyyətinin yaranmasında da bu xalqların nümayəndələri iştirak ediblər: ərəblər, farslar və türklər. O zaman ərəb dili elm dili, fars dili şeir dili, türk dili isə ordu dili olub. Yəni, türk dili hərb dilidir. İslam ordusunun əsas dayaqları da türklər olub. Türk dili daha çox hünər dili kimi dünyada tanınır. Farsların bir məsəli var: farsi şəkərəz (fars dili şəkər kimi şirindir), torki hünərəz (türk dilində hünər var). Bu dildə qəhrəmanlıq var. Azərbaycan dili oğuz dil qrupuna daxildir".

Akademik M.Nağısoylu Vətənimizin keşiyində dayanan hərbçilərimizə müraciət edərək bildirdi ki, Ana dilimiz dünyada ən zəngin dil qrupuna daxil olan bir dildir. "Ona görə doğma Ana dilinizi sevin, yaşadın, bu dildə danışmağınızla fəxr edin. Ana dilimiz qəhrəmanlıq, döyüş dilidir. Görün, hərb terminləri bizim dildə necə möhtəşəm səslənir. Qoy, sizin Ana dilinizlə Ana Vətəniniz Azərbaycan qürur mənbəyiniz olsun. Görkəmli dramaturqumuz C.Məmmədquluzadənin 1917-ci ildə yazdığı "Azərbaycan" adlı məqaləsi var. O məqalədə üç sözü üç dəfə təkrar edir: Vətən, millət, dil. Bununla yazıçı demək istəyir ki, hər bir insan üçün üç amil mühüm rol oynayır. Onun Vətəni, onun milləti, onun dili. Vətənin də, millətin də keşiyində kim durur, onları kim qoruyur? Əlbəttə ki, əsgər."

Ordu və cəmiyyət əlaqələrinin də hər zaman aktual və zəruri olduğunu bildirən dilçi alim dedi ki, orduda xidmət edən hər bir əsgər və zabit bizim övladımızdır. Orduda xidmət keçən əsgər biləndə ki, onun arxasında valideyni ilə bərabər, xalqının şairi, yazıçısı, ziyalısı dayanır, o zaman hər bir əsgər daha qürurlu olur və daha da əzmlə, böyük iradəylə tutduğu vəzifəsini yerinə yetirir. Millət vəkilləri, ziyalılarımız, şair və yazıçılarımız, elm, mədəniyyət, incəsənət nümayəndələri həmişə ordunun yanındadır. Onlar döyüş bölgəsində yerləşən hərbi hissələrə gedib əsgər və zabitlərimizlə görüşlər keçiriblər. Keçən il tanınmış xalq yazıçısı Anar və xalq şairi Nəriman Həsənzadə başda olmaqla bir qrup ziyalı ölkə Prezidentinin sərəncamından sonra yenidən bərpa olunan Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə səfər edərək orada yaradılan yeni quruculuq işləri ilə tanış olmuşdular. Ordu-xalq birliyi həmişə mövcuddur. Xalqımızda bu ənənə var. Lakin bu ənənəni daha da inkişaf etdirmək lazımdır. Ordu və cəmiyyət, ordu və ziyalı əlaqələrinin daha da dərinləşməsi orduda əsgər və zabitlərimizin döyüş əhval-ruhiyyəsinin yüksək olmasına stimul verən şərtlərdən biridir. Ordu ilə cəmiyyət, xüsusilə ordu ilə ziyalı əlaqələrinin olması olduqca vacibdir. Görkəmli şairimiz Məhəmmədhüseyn Şəhriyar deyirdi ki, bizə qılıncla yanaşı, söz də gərəkdir. Yəni, sözün özü də qılınc qədər kəsərlidir. Xalq şairi Səməd Vurğun İkinci Dünya müharibəsində döyüş gedən cəbhələrdə olur, əsgərlərlə görüşüb onları şeirləri ilə düşmən üzərində yeni-yeni qələbəyə ruhlandırırdı. Bunun özü böyük bir qaynaqdır. Ordu və cəmiyyət, ordu və ziyalı əlaqələrinin daha da dərinləşməsi istiqamətində görüləsi işləri sürətləndirmək lazımdır. Çünki belə məsələlər taleyüklü məsələlərdir. Ordu və cəmiyyət, ordu və ziyalı əlaqələrinin möhkəmlənməsi işlərində təbliğat da vacib amildir. Mən deyərdim ki, hər bir ziyalının ordusunun yanında olması onun vətəndaşlıq mövqeyidir, vəzifə borcudur, şərəfli missiyasıdır."

Akademik Möhsün Nağısoyludan ordumuzun aprel döyüşləri ilə bağlı düşüncələrini qəzetimizin oxucuları ilə bölüşməyi xahiş etdik. O qeyd etdi ki, mən öncə Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovdan danışmaq istəyirəm. "Onun vətənsevərliyi, qəhrəmanlığı gənc nəslə bir nümunədir. Mübariz göstərdiyi döyüş şücaətinə görə Qarabağ müharibəsi tarixində yeni səhifə açdı. Mən övladlarıma da, vətəndaşlarımıza da deyirəm ki, Mübariz kimi Vətənə gərəkli oğul olmaq lazımdır. Biz Mübariz ənənəsinin davamını aprel döyüşlərində gördük. Ordumuzun qəhrəman oğullarının sayəsində nə qədər ərazilərimiz düşmən tapdağından azad olundu. Aprel döyüşlərində neçə-neçə hünərli Azərbaycan oğlu Vətən uğrunda canından keçdi. Şəhidliyə hazır olmayan xalq, xalq ola bilməz. Mənim namizədlik işim "Şühədanamə" adlanır. Yəni, "Şəhidlər kitabı". O kitabı yenidən çapa hazırlayıram. Kitabda ibrət alınası bəzi məqamlar var: insan gərək qarşısına məqsəd qoysun, iradəli, əzmli olsun. Düşmən səndən sayca çox ola bilər. Lakin əsas sayın çoxluğu deyil, əsas insandakı iradədir, əzmdir, qəhrəmanlıqdır. Bütün bu xüsusiyyətlər ordumuzun şəxsi heyətində cəmlənən xüsusiyyətlərdir. Aprel döyüşləri göstərdi ki, Vətənimizin ərazi bütövlüyü uğrunda şəhidliyə hazır olan əsgərlərimiz, zabitlərimiz var. Onlar necə mərdliklə, cəsarətlə döyüşürdülər. Allah bütün şəhidlərimizə rəhmət eləsin!"

Dilçi alim söhbətinin sonunda ordumuzun şəxsi heyətinə arzu və istəklərini belə ifadə etdi: "Siz Vətənimizin keşiyində dayanan xalqımızın mərd oğullarısınız. Xalqımız sizə güvənir. Vətəni qorumaq müqəddəs vəzifədir və eyni zamanda şərəf işidir. İnsanın həyatda bir izi olur. Şair, yazıçı əsəriylə, memar tikdiyi binasıyla, sizsə Azərbaycan adlı bir məmləkətin, ölkənin keşiyində dayanaraq müqəddəs əməlinizlə tarixdə iziniz qalır. Bu müqəddəs işdə sizə sarsılmaz iradə, möhkəm qətiyyət və əzm arzulayıram."

**Söhbəti apardı:**
**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyə üçün istehsal olunan "F-35 A" təyyarələrinin test uçuşları həyata keçirilib



Türkiyə Hərbi Hava Qüvvələri üçün ABŞ-da istehsal olunan "F-35 A" qırıcılarının test uçuşları uğurla həyata keçirilib.

"F-35 A" qırıcılarının Türkiyəyə təhvil verilməsinə iyunun 21-də başlanılacaq. Hazırda türkiyəli iki pilot ABŞ-da "F-35 A" qırıcılarını idarə etmək üçün təhsil və təlim alır.

## Rumıniyada "Tırtıllı" Renault Duster avtomobili nümayiş olundu



Rumıniyada hərbi texnika və avadanlığa həsr olunmuş BSDA adlı sərgi çərçivəsində "Tırtıllı" Dacia Duster (MDB ölkələrində Renault Duster kimi tanınan) krossover avtomobilinin təqdimatı keçirilib.

İstehsalçıların məlumatına əsasən, yeni avtomobil səhiyyə, hərbi, kənd təsərrüfatı və özəl biznesdə istifadə oluna bilər. Modelin normal təkərli vəziyyətdən tırtıllı vəziyyətə dəyişdirilməsi təxminən bir saat vaxt tələb edir. Avtomobilin başlanğıc qiyməti 11 min avro olacaq.

Qeyd edək ki, dözümlülüyü, keyfiyyəti və münasib qiyməti ilə seçilən krossover avtomobil həvəskarlarının rəğbətini qazanıb.

## NATO təlimlərinin keçirilməsi üçün Litvaya 1500 vahid hərbi texnika gətiriləcək



İyunun 6-dan 9-dək Litva ərazisində NATO təlimlərinin keçirilməsi üçün bu ölkəyə 3000 hərbçi və 1500-dək hərbi texnika gələcək və buradan Şimali Atlantika Alyansının Latviya və Estoniyada təşkil olunacaq təlimlərinə yola salınacaq.

May-iyun aylarında Litvanın ərazisində 6600 əcnəbi hərbçinin iştirakı ilə "Saber Strike 2018" irimiqyaslı regional manevrlər planlaşdırılır. Təlimlərin keçirilməsi ilə bağlı parlamentlə razılığa gəlinib, çünki hökumətin səlahiyyəti Litvaya başqa ölkələrdən 1600 hərbçi buraxılması ilə məhdudlaşır.

## Qəndaharda partlayış nəticəsində ölənlərin sayı 16 nəfərə çatıb



Əfqanıstanın cənubunda yerləşən Qəndahar vilayətinin eyni adlı inzibati mərkəzində bomba yüklənmiş avtomobilin partladılması nəticəsində həlak olanların sayı 16 nəfərə çatıb, 35 nəfər isə müxtəlif dərəcəli xəsarətlər alıb.

Bu barədə region qubernatorunun mətbuat katibi Davud Əhmədi bildirib.

Hadisə yerli vaxtla təxminən saat 12:30-da Qəndahar şəhərinin 4-cü polis məntəqəsinin ərazisində qeydə alınıb. Polis əməkdaşları yoxlama apararkən kamikadze avtomobilə yerləşdirilən partladıcı qurğunu işə salıb.

Ölkədə fəaliyyət göstərən heç bir qruplaşma hadisənin məsuliyyətini üzərinə götürməyib.

## İraqda kamikadze özünü partladıb, ölən və yaralananlar var



İraqın paytaxtı Bağdadda partlayış törədilib.

Terrorçu-kamikadzenin üzərindəki partlayıcı qurğunu işə salması nəticəsində 8 nəfər ölüb, 11-i yaralanıb. Partlayışa görə məsuliyyəti hələ ki, heç bir qruplaşma öz üzərinə götürməyib.

**AZƏRTAC-ın materialları əsasında**

# "Vətəni şəhidlərimizin sevdiyi qədərincə sevirik!.."



Hər şəkil zamanın bir anının yaddaşıdır. Bu bir an xalqla, dövlətçiliklə bağlıdırsa, Vətən sevgisinin təzahürüdürsə, daha dəyərlidir və əbədiyyən bu dəyəriylə yaşadılır; hər baxılanda tarixin o anı yenidən yaşanılır və yaşanıla-yaşanıla ömür yaşadılmalılara köklənir.

Şəhidlik Vətən sevgisinin təsdiqidir...

Şəhidlər vətənsevərlərin Vətən sevgisini təsdiqləyir.

Tədbirlərdən birində azyaşlı bir uşaq xalq şairi Bəxtiyar Vahabzadənin "Şəhidlər" şeirini dedi. O ağrıları yaşaya-yaşaya dedi, ürəyinin səsiylə dedi. Şəhidliyin nə olduğunu bu yaşda uşaqların da bu səviyyədə dərk etməsi könlümü riqqətə gətirdi. Şəhid analarının yanaqlarında közə dönən göz yaşlarının eynini gördüm o uşağın yanağında...

Samid İmanov, Raquf Orucov,... kimi igidlərin şəhid olduğu aprel döyüşləri qəhrəmanlıq tarixi kimi yaşadılır, yaşadılacaq. Bu qələbə Azərbaycan əsgərinin döyüş və mənəvi-psixoloji hazırlığının qələbəsidi, ordu ilə xalqın birliyinin - millixəlqi ruhun qələbəsidi. Həm də Böyük Qələbənin başlanğıcı kimi yaşadılan qələbədi. Bu qələbə həm də şəhidliyə ehtiramın qələbəsidi...

Aprel döyüşlərinin iştirakçılarının xatirələri, söhbətləri yaşarı tarixdi və bu yaşarı tarix həmişə maraqla, qürurla dinlənilir. Belə söhbətlər günümüzün əsgərləri üçün daha maraqlıdı, daha gərəklidi; olmuşları kitabdan, qəzetlərdən, sosial şəbəkələrdən oxuyanlar müəyyən məlumata malik olur. Olmuşların döyüşlərin iştirakçısından eşidilməsi həmişə daha təsirli olub. Zamanında Böyük Vətən müharibəsi iştirakçılarının söhbətlərini dinləyərdik, illərin o üzündə qalanları qürurla yaşayardıq. Atalarımızla, babalarımızla, əmi-dayılarımızla fəxr edərdik. Bu günün yeniyetmələri də belədi; aprel döyüşləri haqqında döyüşənlərin söhbətini dinləmək istəyirlər, dinləyə-dinləyə o sevinci hər söhbətdə yenidən yaşamaq istəyirlər. O sevincin işığında Böyük Qələbənin sevincini görürlər.

Gənc əsgərlər aprel döyüşləri zamanı yeniyetməydi - məktəbliydi, tələbəydi. Aprel döyüşləri haqqında qəzetlərdən oxumuşdular, bu döyüşlər haqqında televiziyadan eşitmişdilər. Hərbi xidmətdə o döyüşlərin iştirakçılarıyla xidmət etmək onları qürurlandırır.

Hərbi xidmətdə şəhidlərə ehtiramı görən əsgərin vətənpərvərlik duyğuları daha mətinliklə formalaşır.

"N" hərbi hissəsində aprel döyüşlərinin şəhidlərinin xatirəsinə ucaldılan abidəyə hər səhər sevgilərlə baxan əsgərlərin duyumları - vətənpərvərliyinin söykənməli olduğu məqamlar həmin döyüşün iştirakçılarından eşitdikləri ilə tamamlanır, çulğaşır, dönməzləşir. Vətən uğrunda şəhid olanlara ehtiramdı bu söhbətlər, torpaqlarımızı işğaldan azad etməyə içilən anddı - qələbənin əsgəri olmaq istəyidi. Söhbət edən də, söhbəti dinləyən də bu amal üçün xidmət edir. Onların amalı hamımızın amalıdı - məmləkətin amalıdı...

Kapitan Şahin Qubadov aprel döyüşlərindən danışır, xatirəsi əbədiləşdirilən şəhidlərdən, onların qəhrəmanlığından danışır, qəhrəmanlığın Vətənə sevginin təzahürü olduğunu xatırladır; "Vətəni sevin" - deyir abidə də, kapitanın abidədən üzülməyən baxışları da. Əsgərlərin baxışlarından oxunan mətləb də Böyük Qələbənin uzaqda olmadığının təsdiqidi: Vətəni şəhidlərimizin sevdiyi qədərincə sevirik!.." ...

..."1945-ci ilin 9 may gününün tarixə qızıl hərflərlə yazılmasını" istəyirdi xalq şairi Səməd Vurğun. Azərbaycan əsgəri çox da uzaqda olmayan hansı ayın hansı gününüsə tarixə qızıl hərflərlə yazacaq!

Belə söhbətlər bu mətləb üçündü...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# Dövlətçiliyimizin 100 illiyi

1918-ci il mayın 28-də "İstiqlal Bəyannaməsi" imzalandı. Bununla da Azərbaycanda Şərqin ilk demokratik respublikası quruldu. Onun müstəqilliyini ilk tanıyan Türkiyə oldu. Bəyannamənin əsas müddəalarında deyilirdi: "Azərbaycan tamhüquqlu və müstəqil dövlətdir". "Azərbaycan Xalq Cümhuriyyəti öz sərhədləri daxilində millətindən, dinindən, cinsindən asılı olmayaraq bütün vətəndaşlarına tam vətəndaşlıq və siyasi hüquqlar verdi".

Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə böyük öhdəliklər götürdü və onu şərəflə yerinə yetirdi. Azərbaycanın sərhədləri müəyyənləşdi, üçrəngli bayrağı, himni, gerbi yaradıldı, ana dili dövlət dili elan olundu, hərbi islahatlar keçirildi.

Azərbaycanın hərbi dəstəyə ehtiyacı olduğu vaxt Nuru paşa Qafqaz İslam Ordusu ilə yardıma gəldi. Bu ordu Azərbaycanı tərk etdikdən sonra ölkədə çox ağır vəziyyət yarandı, xarici təzyiqlər artdı, hərbi müdaxilələr təhlükəsi çoxaldı. Ağır vəziyyət barədə Məmməd Əmin Rəsulzadə deyirdi: "Türk ordusu çəkildi, Azərbaycanın hərbi hissələri isə yox idi, müxtəlif yerlərə səpələnmiş 1500 Azərbaycan əsgəri var idi." Göründüyü kimi vəziyyət çox ağır, vaxt isə yox idi. Çıxış yolu ordu quruculuğu sahəsində təcili tədbirlər görməkdə idi.

Başlanan ordu quruculuğu və müdafiə tədbirləri böyük vüsət aldı, yeni hazırlıq işləri görüldü, planlar hazırlandı. Məşhur hərbçi, Port-Artur döyüşlərində böyük şücaət göstərmiş general Əlağa Şıxlinski ordu quruculuğunu sürətləndirmək məqsədi ilə hərbi planlarla çıxış etdi, strateji təkliflər hazırladı. Plana görə, 1919-cu ildə 25 minlik, 1920-ci ildə isə 40 minlik mütəşəkkil, müasir silahla təmin edilmiş milli ordu yaradılmalı, ən vacib bölgələrdə yerləşdirilməli idi.

Gənclərin təhsil alması üçün 1919-cu il sentyabrın 1-də "Bakı Universiteti"nin yaradılması barədə fərman verildi. Noyabrın 15-də BDU fəaliyyətə başladı. Yüzlərlə gənc ali təhsil almaq üçün xaricə göndərildi.

1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyəti süquta uğradı, onun həyata keçirəcəyi bir çox tədbirlər də yarımçıq qaldı.

1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyi bərpa edildi. Azərbaycan Xalq Cümhuriyyətinin himni, gerbi, üçrəngli bayrağı yenidən qəbul olundu. Bizi müstəqilliyə doğru aparan 28 may tarixi əbədiləşdirilərək qələbə günü kimi qeyd olunur. Bu, dövlətçiliyimizin qələbə günüdü.

**Hüsniyyə İDRİSOVA,**
**BSU-nun I kurs tələbəsi**

# Kursantlar arasında inşa müsabiqəsi keçirildi



Azərbaycan Həmkarlar İttifaqı İcraiyyə Komitəsinin Cəmşid Naxçıvanski adına Hərbi Lisey ilə 2014-2019-cu illər üçün mədəni hamilik üzrə tədbirlər planına əsasən, bu günlərdə hərbi təhsil ocağında "Vətənə xidmət edirik" mövzusunda inşa müsabiqəsi keçirildi. Ümumiyyətlə, vətənpərvərlik mövzusunda inşa müsabiqələrinin keçirilməsi uzun illərdir ki, Cəmşid Naxçıvanski adına Hərbi Liseydə ənənəyə çevrilib. Təhsil ocağının rəhbərliyi kursantların hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasını daim diqqət mərkəzində saxlayır. Sabahımızın zabitləri olacaq kursantlar isə belə yarış və müsabiqələrdə bacarıqlarını, biliklərini nümayiş etdirərək müsbət nəticələr göstərməyə, layiqli yerlər tutmağa çalışırlar. Hər il olduğu kimi, bu il də inşa müsabiqəsi gərgin mübarizə şəraitində keçdi və maraqlı anlarla yadda qaldı.

Kursantlar bu dəfə də yarışda çox böyük həvəslə iştirak edirlər. Verilən mövzular onların ürəyindən xəbər verirdi. İştirakçılar bacarıqlarına, biliklərinə arxayın olaraq müsabiqəyə qələbə qazanmaq əzmi ilə qatılmışdılar. Uzun müddətdir davam edən inşa müsabiqəsinə bu günlərdə yekun vuruldu. Həyəcanlı günlər, anlar ötüb arxada qaldı. İnşaların yoxlama mərhələsi başa çatan kimi qaliblər müəyyənləşdi və nəticələr elan olundu.

Məlum oldu ki, kursant Toğrul Yusifzadə "Aprel döyüşlərini unutmadıq" mövzusunda yazdığı inşa ilə birinci pilləyə yüksəlib. Kursant Nihad Vəliyev "Qələbəyə hazır olaq" mövzusunda yazdığı inşa ilə ikinci yerə çıxıb. Üçüncü yeri kursant İqbal Xalidov "Son illərdə orduya verilən qiymət" mövzusunda yazdığı inşa ilə tutub. Onu da oxucuların nəzərinə çatdıraq ki, inşa müsabiqəsində 30-dan çox kursant iştirak edib.

"Vətənə xidmət edirik" inşa müsabiqəsi komissiyasının sədri Hərbi liseyin Ana dili və ədəbiyyat fənn bölməsinin rəisi mayor Ceyran Abbasova söhbət zamanı dedi ki, belə müsabiqə və yarışların keçirilməsinin böyük əhəmiyyəti var. "Hər şeydən əvvəl bu cür tədbirlər kursantların hərbi vətənpərvərlik ruhunda böyüməsinə müsbət təsir göstərir. Kursantlar müxtəlif mövzulara müraciət etdikdə, düşüncələrinə güvənərək könül oxşayan yazılar qələmə aldıqca onların təcrübələri, səriştələri, bilikləri artır, dünyagörüşləri formalaşır. Buna görə də belə maraqlı və əhəmiyyətli tədbirləri teztez keçirməyə çalışırıq. İnanıram ki, bugünkü yarışda qalib gələn kursantlar gələcəkdə daha böyük uğurlar qazanacaq, ordumuzun bacarıqlı zabitləri olacaqlar."

Müsabiqədə qalib gələn kursantlarla - Toğrul Yusifzadə, Nihad Vəliyev və İqbal Xalidovla görüşüb söhbət edirəm. Onlar sevinc içindədirlər. İnşa müsabiqəsində layiqli yer tutduqlarına görə qürur hissi keçirirdilər. Həmişə belə olur, insan gücünə, bacarıq və biliyinə güvənib qalib gələndə həmişə ovqatını xoş hisslər bürüyür. Kursantlar qazandıqları qələbəyə görə müəllimlərinə minnətdar olduqlarını bildirdilər.

Oxucuların diqqətinə onu da çatdıraq ki, müsabiqədə qalib gəlmiş kursantlar yaxın günlərdə Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasının rəhbərliyi tərəfindən mükafatlandırılacaq. Kursantlara fəxri fərman və qiymətli hədiyyələr təqdim olunacaq.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına**
**Hərbi Lisey**

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal olunmuş ərazilərimizdə yerləşdirilən Ermənistan ordusunun bölmələrindən birində maraqlı hadisə baş verib.

Hərbi hissədə xidmət edən 12 nəfərə növbəti hərbi rütbə verilməsi üçün təqdimat göndərilib. Lakin hərbi hissəyə nazirlikdən əmr gəldikdən sonra zabitlər xidmət yoldaşını yaxşıca əzişdiriblər. Buna səbəb isə təkcə bir nəfərə, Yerevan şəhər sakini olan və hamıdan az xidmət edən Arev Petrosyana növbəti hərbi rütbənin verilməsi olub. Qalan hərbçilərin təqdimatları müxtəlif bəhanələrlə icra edilmədiyi halda Yerevanda yüksək vəzifəli qohumu olan A.Petrosyana tez bir zamanda rütbə verilməsi barədə gələn əmr, onun zabit yoldaşlarının qəzəbinə səbəb olub.

Qalmaqalın böyüməməsi və zabitlərin sakitləşdirilməsi məqsədilə komandanlıq yaxın vaxtlarda məsələnin həll ediləcəyini vəd edib.

Məlumatda məsələnin həllini səbirsizliklə gözləyən zabitlər arasında gərginliyin hələ də davam etdiyi bildirilir. Bu cür ədalətsizliyin hər addımda mütəmadi baş verməsi, zabitlərin haqlı etirazına və hiddətinə səbəb olur.

Döyülən zabit A.Petrosyan isə hospitala göndərilib. Eyni zamanda komandanlıq onun xidmətini davam etdirmək üçün başqa yerə keçirilməsi barədə tədbir görməyə çalışır.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş çavuş Nuriyev Samir Həsənağa oğluna 2014-cü ildə verilmiş vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Fuad CƏFƏROV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 367
Nüsxə 3525